# Qəhrəmanlıq tarixi yazan Cəlal

**44 günlük haqq savaşımızda Vətən yolunda ölümü şərəf bilib onu öz qanı, canı bahasına alınmaz qalaya döndərən minlərlə qeyrətli övladlardan biri də Azərbaycan Silahlı Qüvvələrinin giziri şəhid Cəlal Ağaverdi oğlu Ağayevdir. İndi qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna çevrilən bu, Vətən sevdalısı 1984-cü ildə dekabrın 4-də Lerik rayonu, Kornədi kəndində dünyaya göz açıb.**



Doğma Azərbaycanı canından artıq sevən Cəlal Ağayev əsgərliyini başa vurandan sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin gizir ixtisası və hazırlıq kurslarını uğurla bitirib ömrünü hərbiyə bağlayıb. 17 il Vətənin keşiyində duran gizir əvvəlcə Goranboyda tank komandiri olub, sonra Tərtərdə xidmətini davam edib. Fəallığı, nizam-intizamı, vətənpərvərliyi ona hörmət qazandırıb. Düşmənlə üz-üzə gələndə ona layiqli cavab verib. Bütün bunlara görə 13 fəxri fərman, yubiley və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medallara layiq olub.

Cəlal 2016-cı ildə başlayan Aprel döyüşlərində böyük şücaətlər göstərib. Belə ki, yağının kabusuna çevirməklə onlara qan uydurub. Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb və sentyabrın 29-u bu istiqamətdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhadətə qovuşub. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və digər medallar ilə təltif edilib.

Cəlal Ağayev cismən aramızdan getsə də, milyonların ürəyində yaşayır. Lerikdə böyük də, kiçik də öz qəhrəman oğlunu yad etməyi, həmişə xatirəsini əziz tutmağı ən müqəddəs borc bilir. Bu günlər rayon rəsmiləri, ictimaiyyət nümayəndələri Cəlalın doğum günündə-40 yaşının tamamında məzarını ziyarət etdilər, önünə gül dəstələri qoydular. O da bildirildi ki, Vətən, xalqı üçün canından keçənlərin ömrü əbədidir. Onlar hər cür ehtirama və məhəbbətə layiqdirlər. Cəlal Ağayev də belə...

Onu da deyim ki, zəfər şəhidimizin atası Ağaverdi kişi rayonda qabaqcıl, öz işini gözəl bilən bir mədəniyyət işçisi kimi böyük nüfuz, hörmət sahibidir.

**Zəfər ORUCOĞLU**